**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**

**SƏRƏNCAM**

317s

Bakı şəhəri 11 may 2018-ci il

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1066-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 may tarixli 47 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə:

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi aidiyyəti olanlarla razılaşdırmaqla:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1066-VQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

2. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının hüquq şöbəsinə tapşırılsın.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**